**2009 07 23  21:26**
**MƏNBƏ: www.anspress.com**

# İlham Əliyev Masazır yaxınlığındakı yeni körpünün açılışında iştirak edib

**Körpü Bakı-Quba-Rusiya sərhədi avtomobil magistralında yerləşir**

Bu gün prezident İlham Əliyev Bakı-Quba-Rusiya sərhədi avtomobil magistralında, Masazır qəsəbəsi yaxınlığında inşa edilmiş körpünün açılışında iştirak edib.

Prezidentə məlumat verilib ki, yerdən hündürlüyü 9 metr olan körpünün tikintisində yüksək təzyiqə davamlı tirlərdən istifadə edilib. İnşaat işləri zamanı 47 min kubmetr torpaq işləri görülüb, 4773 kubmetr beton və 12 min 540 ton asfaltdan istifadə edilib.

Çexiya İxrac Bankının maliyyələşdirdiyi layihənin sifarişçisi Nəqliyyat Nazirliyidir. İnşaat işlərini "Azərinşaatservis» MMC həyata keçirib. Xirdalandan və Masazırdan gələn avtomobil yollarını magistralla birləşdirən yeni körpü bu ərazidə nəqliyyat vasitələrinin hərəkət rahatlığının təmin edilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Yolun 12-ci kilometrində inşa edilən altı zolaqlı körpünün uzunluğu 84, eni 24,5, hərəkət zolaqlarının hər birinin eni 3,75 metrdir. /AzərTAc/

*© 2008-2009 Bütün hüquqlar qorunur. Xəbərlərdən istifadə edərkən ANS-PRESS-ə istinad zəruridir.*